# XİDMƏT ŞƏRTLƏRİ

1.1. Bu xidmət şərtləri ("**Şərtlər**") https://____ vebsaytı, həmçinin ____ mobil tətbiqi (bundan sonra "**Tətbiq**") vasitəsilə göstərilən tibb xidməti təminatçıları ilə istifadəçilər arasında vasitəçilik xidmətləri, o cümlədən onlayn axtarış, həkim və klinika profilləri, görüş təyini, məlumat mübadiləsi və s. xidmətlərin istifadəsini tənzimləyir.

1.2. Tətbiqin inzibatçılığını ___ MMC, VÖEN: ___, Ünvan: ___ (bundan sonra "**Operator**", "**Biz**") həyata keçirir. Operator və Tətbiqdən istifadə edən fərdi və hüquqi şəxslər (bundan sonra "**İstifadəçi**", "**Siz**") arasında hüquqi münasibətlər bu Şərtlər əsasında tənzimlənir.

1.3. Tətbiqdən istifadə etməklə Siz bu Şərtləri qəbul etmiş sayılırsınız. Şərtlərlə razı olmayan İstifadəçi, Tətbiqdən istifadə etməməlidir.

## 2. Terminlər

2.1. **Xidmətlər** — Tətbiqin təqdim etdiyi axtarış, profil baxışı, görüş təyinetmə, mesajlaşma, reytinq və rəylər, bildirişlər və digər funksiyalar.

2.2. **Həkim** və **Klinika** (birlikdə "**Provayder**") — Tətbiqdə öz profilini, elan və reklam yerləşdirən, xidmət təklif edən üçüncü tərəf tibb xidmətləri təminatçıları, həkimlər və klinikalardır.

2.3. **İstifadəçi Məzmunu** — İstifadəçi tərəfindən Tətbiqdə yerləşdirilən bütün növ mətn, şəkil, video, rəylər, reytinqlər, suallar və digər məlumatlar.

2.4. **İstifadəçi Məlumatları** — Tətbiqin istifadəsi zamanı İstifadəçi tərəfindən daxil edilən qeydiyyat məlumatları (ad, soyad, əlaqə nömrəsi, e-mail), profil məlumatları, axtarış və Provayderlə görüş məlumatları, istifadə olunan cihaz və texniki məlumatlar (IP ünvanı, cookie və s.), tibbi və tibbi olmamaqla yanaşı, bəzən sağlamlıqla əlaqəli məlumatlar, həmçinin bunlarla bağlı analitik məlumatlar, Tətbiqin fəaliyyəti zamanı İstifadəçi barədə toplanılan məxfi və ya qeyri-məxfi, fərdi və ya ümumi digər məlumatlar.

## 3. Predmet

3.1. Tətbiq İstifadəçilərə Həkim və Klinikaları tapmaq, onlarla əlaqə yaratmaq, görüş təyin etmək və məlumat mübadiləsi aparmaq üçün platforma təmin etməklə sırf vasitəçi rolunu oynayır.

3.2. Tətbiq tibbi xidmət göstərmir, diaqnoz qoymur, tibbi məsləhət vermir və peşəkar tibbi qərarların qəbuluna qarışmır.

3.3. Həkim və Klinika profilləri və onlar tərəfindən təqdim olunan tibb xidmətləri, həmin xidmət və məsləhətlərin düzgünlüyü və potensial nəticələri üçün məsuliyyət müvafiq Həkim və Klinikaların özlərinə aiddir. Tətbiq Həkim və Klinikaların təqdim etdiyi məlumatların düzgünlüyünü, lisenziyalarını, ixtisasını və göstərilən xidmətlərin keyfiyyətini təsdiqləmir. Bununla belə, Operator müəyyən təsdiqləmə və yoxlama prosedurları tətbiq edə bilər.

3.4. İstifadəçi tibbi xidmət almaq üçün Tətbiqdən istifadə etdikdə baş verən hər hansı tibbi nəticə, səhv və ya zərər üçün Operator məsuliyyət daşımır və bununla bağlı istənilən iddia qarşısında cavabdeh xidmət göstərən müvafiq Həkim və ya Klinikadır.

## 4. İstifadəçi hesabı

*Qeydiyyat*

4.1. Tətbiqdə təqdim olunan bir sıra funksiyalardan istifadə üçün İstifadəçi hesab açmaqla qeydiyyatdan keçməlidir. İstifadəçi qeydiyyat zamanı tam, doğru və yenilənmiş/ən son məlumatları təqdim etməlidir.

*Təhlükəsizlik*

4.2. Hesab məlumatlarının qorunması (o cümlədən, şifrə və ya digər giriş vasitələri) İstifadəçinin məsuliyyətindədir. İstifadəçi hesabdan icazəsiz istifadə və ya digər pozuntular barədə Operatora dərhal məlumat verməlidir.

4.3. Tətbiqin istismarını pozan, zərərverici və ya qanunsuz hərəkətlər qadağandır. Buna saxta profillər, botlar, spam, Tətbiqin fəaliyyətini pozmağa yönəlmiş hərəkətlər və s. daxildir.

*Tədbirlər*

4.4. Operator şübhəli və ya qanunsuz fəaliyyət aşkar edərsə müvafiq İstifadəçi hesabının fəaliyyətini məhdudlaşdırmaq, onu bloklamaq və ya ləğv etmək, profil məlumatını və ya əlavə doğrulama tələb etmək hüququna malikdir.

4.5. Qadağan olunmuş fəaliyyətlərin aşkar edilməsi halında Operator müvafiq tədbirlər, o cümlədən hesabın bloklanması, materialların çıxarılması və hüquq-mühafizə orqanlarına məlumat verilməsi kimi tədbirlər görmək hüququnu özündə saxlayır.

*Üçüncü tərəf resursları*

4.6. Tətbiqdə üçüncü tərəf resurslarına keçidlər ola bilər. Operator bu saytların məzmununa, təhlükəsizliyinə və fəaliyyətinə görə məsuliyyət daşımır.

4.7. Hər hansı üçüncü tərəf ödəniş provayderi, tele-tibb xidməti və ya onlayn konsultasiya xidməti fərqli qayda və şərtlərə tabe ola bilər.

## 5. Həkim və Klinikalar

5.1. Provayderlərin profilində qeyd olunan məlumatların (adı, ünvanı, lisenziya və sertifikat məlumatları, xidmət saatları, əlaqə vasitələri və s.) düzgün, tam və qanuni olmasına müvafiq Həkim və ya Klinika məsuliyyət daşıyır.

5.2. Tətbiqdə reklam məqsədilə təqdim edilən məlumatların qanunvericiliyə və peşə etikası normalarına uyğun olmasına müvafiq Provayderlər cavabdehdirlər.

*Görüşlər*

5.3. Tətbiq üzərindən görüş təyin etmək yalnız İstifadəçi və provayder arasındakı razılaşmanı asanlaşdırmaq üçündür. Görüş zamanı xidmət göstərən Provayderin şərtləri və fəaliyyət qaydaları tətbiq olunur.

5.4. Görüşün ləğvi və dəyişdirilməsi Provayderin qaydalarına tabedir. Operator ləğv və ya cərimə siyasətinə müdaxilə etmir, yalnız müvafiq Provayder tərəfindən daxil edilən bu məlumatları Tətbiqdə əks elətdirir.

5.5. İstifadəçilər və provayderlər öz aralarında hörmətlə, peşəkar davranmalı, qarşı tərəfin hüquqlarını pozmamalıdır. Qaydaların pozulması hesabın bloklanmasına və ya silinməsinə səbəb ola bilər.

*Provayder məlumatlarına zəmanət*

5.6. Operator Provayderlərin müvafiq peşəkar sığorta və lisenziyalarının mövcudluğunu yoxlamağı tövsiyə edir; lakin bu yoxlamanın aparılması üzrə tam zəmanət vermir.

5.7. Provayderlərdən tələb olunan sənədlər və yoxlamalar haqqında qaydalar əlavə olaraq Operator tərəfindən müəyyən edilə bilər.

## 6. Ödəniş

6.1. Tətbiq İstifadəçidən heç bir ödəniş tələb və qəbul etmir və Xidmətlər, İstifadəçilər üçün pulsuzdur.

6.2. Həkim və Klinikalar öz xidmətləri üçün ödəniş tələb edə bilərlər; ödəniş prosedurları və qaydaları müvafiq Provayderin şərtlərinə tabedir. Operator ödənişlərin təminatçısı və ya vasitəçisi deyil və əgər Operator müəyyən ödəniş xidməti təqdim edərsə, buna ayrıca qaydalar tətbiq olunacaq.

6.3. Operator ödənişə, həmçinin ödənişin geri alınmasına görə təminat vermir və ödənişlə bağlı mübahisələr müvafiq Provayder və İstifadəçi arasında həll olunmalıdır.

## 7. Məxfilik və Şəxsi Məlumatların Emalı

7.1. Tətbiqə daxil olaraq və ya qeydiyyatdan keçərək Siz Tətbiqin məxfilik siyasətinə razılıq verirsiniz.

7.2. Operator İstifadəçinin şəxsi məlumatlarını toplamaq, istifadə etmək və saxlamaq üçün qanunvericiliyə uyğun fəaliyyət göstərir.

7.3. İstifadəçi Məlumatları Operator tərəfindən toplanıla, emal oluna və Operatorun əməkdaşlıq etdiyi üçüncü tərəflərə ötürülə bilər.

7.4. İstifadəçi Məlumatları hesabların idarə edilməsi və Xidmətlərin göstərilməsi, randevuların təşkil edilməsi, müştəri xidmətləri, Xidməti təkmilləşdirmə, statistik analiz və qanuna uyğun digər məqsədlər üçün saxlanıla, istifadə və emal oluna bilər.

7.5. İstifadəçi Məlumatlarının emal olunması hər hansı Xidməti təmin etmək üçün Şərtlərin icrası, qanuni öhdəliklərin icrası və Operatorun qanuni maraqları üçün həyata keçirilir.

7.6. Operator İstifadəçi Məlumatlarını üçüncü tərəf provayderlərə (hosting, analiz xidməti, e-mail göndərmə və s.) ötürə bilər.

7.7. İstifadəçi Məlumatları yalnız məqsədə uyğun olaraq və qanunda nəzərdə tutulmuş müddətlər ərzində saxlanılır.

7.8. İstifadəçi öz İstifadəçi Məlumatlarına çıxış əldə etmək, düzəliş etmək və məlumatları silmək hüququna malikdir.

7.9. Operator tibbi və sağlamlıqla əlaqəli həssas məlumatların emalında bu məlumatların qorunması üçün ağlabatan tədbirlər görür.

7.10. Operator İstifadəçi Məlumatlarının icazəsiz və qanunsuz əldə edilməsindən qorunması üçün texniki və təşkilati tədbirlər görür, lakin tam təhlükəsizliyə zəmanət vermir. İstifadəçi öz cihaz və hesab təhlükəsizliyi üçün cavabdehdir.

7.11. Şərtlərdə qeyd olunmuş digər hallara əlavə olaraq Operator, İstifadəçi Məlumatlarını İstifadəçinin razılığı, hüquq-mühafizə orqanlarının sorğusu, müvafiq rəsmi orqanın tələbi, qanunvericiliyin tələbi və/və ya məhkəmə qərarı ilə nəzərdə tutulmuş hallarda üçüncü şəxslərə təqdim edə bilər.

## 8. Cookies və İzləmə

8.1. Tətbiq cookie və oxşar texnologiyalardan istifadə edir.

8.2. Cookie-lərin deaktiv edilməsi Tətbiqin bəzi funksiyalarının işləməməsinə səbəb ola bilər.

**9. İstifadəçi Məzmunu, Rəylər və Reytinqlər**

9.1. İstifadəçi Məzmununu paylaşmaqla Operatora həmin Məzmunun istifadəsi, kopyalanması, redaktəsi, yayımlanması və nümayiş etdirilməsi üçün qeyri-müəyyən müddətli, qlobal, geri qaytarılmaz, qeyri-müstəsna səlahiyyət verir.

9.2. İstifadəçi Məzmununun qanunsuz, təhqiramiz, böhtan xarakterli və ya üçüncü şəxslərin haqlarını pozan tərkibdə olmamasına zəmanət verir. Operator belə Məzmunu moderasiya etmək və ya məhv etmək hüququnu özündə saxlayır.

**10. Məsuliyyətin məhdudlaşdırılması**

10.1. Tətbiq olduğu kimi (“as is”) və mövcud olduğu halda (“as available”) prinsipi ilə təqdim olunur. Operator xidmətlərin fasiləsiz və səhvsiz işləməsini təmin etmir.

10.2. Operator birbaşa və ya dolayı hər hansı zərərə (o cümlədən gəlir itkisi, reputasiya itkisi, tibbi zərər və s.) görə məsuliyyət daşımır.

10.3. İstifadəçi Tətbiqi istifadə etməklə Operatoru, onun rəhbərliyini, işçilərini və nümayəndələrini hər hansı iddia, tələb və xərclərdən (o cümlədən məhkəmə və vəkil xərcləri daxil olmaqla) azad etməyi və kompensasiya etməyi öhdəsinə götürür. Bu, xüsusilə İstifadəçinin səhv məlumat verməsi, qanunsuz fəaliyyət və ya Provayderin xidməti nəticəsində yaranan iddialara şamil olunur.

**11. Zəmanətlər və Vədlər**

11.1. İstifadəçi Tətbiqin istifadəsi ilə bağlı bütün qanun və tələblərə, o cümlədən Şərtlərə riayət edəcəyinə, Məzmunun doğruluğuna və üçüncü tərəflərin hüquqlarını pozmayacağına təminat verir.

11.2. Operator hər hansı tibbi nəticə üçün zəmanət vermir və tibbi müalicə və ya məsləhətin nəticələrinə görə məsuliyyət daşımır.

**12. Yekun Müddəalar**

*Mübahisələrin həlli*

12.1. Şərtlərin tətbiqi və istifadəsindən yaranan mübahisələr tərəflər arasında danışıqlar yolu ilə həll olunmağa çalışılacaq.

12.2. Razılığa gəlinmədiyi hallarda, mübahisə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Bakı məhkəmələrində həll ediləcək.

12.3. Arbitraj və ya alternativ mübahisə həll üsulu tərəflər arasında ayrıca yazılı razılaşma ilə müəyyən edilə bilər.

*Dəyişikliklər*

12.4. Operator istənilən vaxt Şərtləri və məxfilik siyasətini dəyişmək hüququnu özündə saxlayır. Dəyişikliklər Tətbiqdə nəşr olunduğu andan və ya dəyişiklikdə göstərilən tarixdən qüvvəyə minir.

12.5. Əhəmiyyətli dəyişikliklər barədə İstifadəçilərə e-mail və/və ya Tətbiqdə bildiriş vasitəsilə məlumat verilə bilər.

12.6. Operator tərəfindən edilən hər hansı bildiriş və ya kommunikasiya elektron poçt vasitəsilə və ya Tətbiqdə İstifadəçi profilində göstərilən vasitələrə göndərilə bilər.

*Digər*

12.7. Tətbiqlə bağlı bütün hüquqlar, o cümlədən əqli mülkiyyət hüquqları yalnız Operatora aiddir.

12.8. Şərtlərdə istifadə olunan başlıqlar və bölmə adları yalnız istinad və rahat oxunuş məqsədi daşıyır və Şərtlərin hüquqi təfsirinə, şərhinə və ya tətbiqinə təsir göstərmir.

12.9. Bu Şərtlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun tərtib olunmuşdur.

12.10. Bu Şərtlər və Tətbiq arasında hər hansı ziddiyyət yarandıqda Azərbaycan qanunları tətbiq ediləcək.

12.11. Əgər bu Şərtlərin hər hansı müddəası qüvvədən düşərsə və ya etibarsız hesab edilərsə, digər müddəalar öz qüvvəsini saxlayacaq.

Əlaqə məlumatları

Operator: ___ MMC
Ünvan: ___
E-mail: ___
Telefon: ___
Tarix: ___